*UOT 372.881.111.1*

***Nərminə Soltan qızı Quliyeva***
*Azərbaycan Dövlət İqtisad Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5090-9699*
*E-mail: quliyevanermine55@mail.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).190-193

# İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

***Нармина Солтан гызы Гулиева***
*старший преподаватель Азербайджанского Государственного Экономического Университета*

# ФОРМИРОВАНИЕ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ СТУДЕНТОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

***Narmina Soltan Guliyeva***
*senior lecturer at the Azerbaijan State Economic University*

# FORMATION OF MORAL EDUCATION OF STUDENTS IN THE PROCESS OF TEACHING ENGLISH

**Xülasə.** Gənc nəslin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması ali məktəblərin qarşısında qoyulmuş başlıca vəzifələrdəndir. Bu, təhsil prosesinin idarə olunması, təlimin məzmunu və tədris edilən fənlərin təşkili kimi mühüm istiqamətlərdə əksini tapır. İngilis dili fənni təhsilalanların bu dildə kommunikativ bacarıqlarının formalaşmasına xidmət etsə də, onların vətənpərvərlik, insansevərlik, dövlətçilik, sülhsevərlik, dözümlülük, söz və əməldə birlik və s. kimi milli-mənəvi tərbiyə olunmasında önəmli rol oynayır.
***Açar sözlər:*** *ingilis dili, tələbələrin mənəvi tərbiyəsi, inkişaf, linqvistik biliklər, kommunikativ bacarıqlar*

**Аннотация.** Формирование подрастающего поколения на основе национальных и духовных ценностей является одной из основных задач, стоящих перед высшими учебными заведениями. Это находит отражение в таких важных областях, как управление образовательным процессом, содержание обучения, организация преподаваемых дисциплин. Несмотря на то, что преподавание английского языка служит развитию коммуникативных навыков студентов на этом языке, оно также должно играть важную роль в их национальном и нравственном воспитании, развивать у студентов патриотизм, человеколюбие, государственность, миролюбие, толерантность, единство слова и дела и т. д.
***Ключевые слова:*** *английский язык, нравственное воспитание студентов, развитие, лингвистические знания, коммуникативные навыки*

**Abstract.** The formation of the younger generation based on national and moral values is one of the primary responsibilities of higher education institutions. This is reflected in key aspects such as the management of the educational process, the content of instruction and the organization of subjects taught. While the English language subject aims to develop students' communicative skills in this language, it also plays a significant role in fostering their moral upbringing in areas such as patriotism, humanism, statehood, peacefulness, tolerance, unity in word and action and other national and moral values.
***Keywords:*** *English language, students' moral upbringing, development, linguistic knowledge, communicative skills*

Respublikamızın prezidenti cənab İlham Əliyevin müxtəlif ölkələrə səfərləri qarşılıqlı iqtisadi, mədəni, sosial əlaqələrin genişlənməsinə, mədəni, mənəvi, ticarət münasibətlərinin güclənməsinə şərait yaradır. Bu proseslərdə hər bir vətəndaş öz ölkəsinin mədəniyyətini, incəsənətini, ədəbiyyatını müxtəlif yerlərdə təbliğ etmək istəyir. Bu istək məhz mənəvi keyfiyyətlərlə bağlıdır. İnsan mənəvi cəhətdən zəngin olarsa, o, Vətəninin, xalqının keçmişini dəyərləndirər

və bu gün də onun tanınması üçün əlindən gələni edər. Bu cür istəyin həyata keçirilməsində isə xarici dillərin, xüsusilə də ingilis dilinin böyük rolu vardır. Məhz xarici dillər milli-mənəvi dəyərlərin, mədəniyyətin, insan biliklərinin qoruyucusu və daşıyıcısı, xalqların, millətlərin, ayrı-ayrı şəxsiyyətlərarası münasibətlərin, hər sahədə əməkdaşlığın vasitəçisidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyllərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi, xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha da zəruri etmişdir. Bir qisim müəllimlər xarici dilin tələbələrin mənəvi tərbiyəsi ilə bağlı olmadığı iddiası ilə çıxış edir. Onların fikrincə, xarici dil fənninin başlıca vəzifəsi yalnız bilik vermək olmalıdır. Təhlil və müşahidələrimiz göstərir ki, belə bir arzuolunmaz vəziyyətin yaranma səbəblərindən biri də bu müəllimlərinin müvafiq pedaqoji-metodik maarifləndirmə mənbələri ilə əhatə olunmamasıdır. Əlbəttə bu yanlış fikirdir. Xarici dil fənninin emosional təsir imkanları tarix, ədəbiyyat, musiqi, rəsm və digər fənlərlə bərabər tutulmalıdır. Lakin hər halda xarici dil müəllimi də insanın, konkret olaraq tələbələrin mənəvi insan kimi yetişməsində, hazırlanması işində iştirakçıdır. O da tələbələrin mənəvi tərbiyəsi üzrə tədris etdiyi fənnin daxili imkanlarını, konsepsiyasını aşkarlamağa və ondan səmərəli şəkildə istifadə etməyə borcludur. Belə bir baxışdan ali məktəblərin xarici dil müəllimlərinin pedaqoji-metodik məlumatlandırılması günümüzün reallığı kimi dəyərləndirilməlidir. Xarici dil təlimi vasitəsilə tələbələrdə başqa xalqların dil və mədəniyyətinə, milli-mənəvi dəyərlərinə hörmət hissi, tolerantlıq formalaşdırılır. Xarici dilə yiyələnmə tələbələrin humanitar təhsil səviyyəsini yüksəldir, şəxsiyyətin qloballaşmasına, daim dəyişən dünyanın tələblərinə uyğunlaşmasına imkan yaradır [3].

Xarici dil tələbələrin linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır və nitq inkişafına müsbət təsir göstərir. Xarici dilə mükəmməl yiyələnmiş hər bir gənc harada olmasından asılı olmayaraq ölkəmizi layiqincə təmsil etməklə yanaşı, dünya ölkələri ilə tanışlıq, xarici dil daşıyıcılarına Azərbaycanı təqdim etmək, respublikamızda baş verən prosesləri dünya ictimaiyyətinə birbaşa çatdırmaq imkanı əldə edir.

Xarici dil dərsləri çox böyük imkanlara malikdir. Məqsəd təkcə xarici dili öyrətmək deyil, həm də Vətənin ləyaqətli müdafiəçisi olan, yüksək mənəvi keyfiyyətlərə, elmi dünyagörüşünə, milli adət-ənənələrə malik, ümumbəşəri dəyərləri mənimsəyən vətəndaş yetişdirməkdir. Müasir cəmiyyətin inkişaf mərhələsində Azərbaycanda təhsilin modernləşdirilməsi xarici dilin təşkilində innovativ proseslərin tətbiq edilməsi ilə bağlıdır.

Tələbələrin ingilis dilində kommunikativ bacarıqlara yiyələnməsi özündə milli və bəşəri dəyərləri ehtiva edən ailəyə, yaşadığın yerə (kəndə, şəhərə, mahala) və ümumən vətənə bağlılıq, cinsindən, dinindən, irqindən asılı olmayaraq insana hörmət və qayğı, əhatə olunduğun canlı və cansız aləmi mühafizə, mənsub olduğun xalqın tarixinə dərindən bələdlik, digər xalqların mədəniyyətinə bələdlik, əməksevərlik kimi mövzularda disput və dialoqların qurulması, esselərin yazdırılması kimi işlərə geniş yer verilməlidir [6].

Müasir insan şəxsiyyət olaraq ailədə, universitetdə və əhatə olunduğu mühitdə yetişir. İngilis dili dərslərində cəmiyyətimizin ictimai həyatında baş verən mühüm hadisələrə, məsələn, xalqımızın Qarabağ uğrunda qələbə qazandığı Vətən müharibəsinə həsr olunmuş mövzulara müraciət olunması tələbələrdə vətənə, millətə, torpağa sədaqət ruhunda tərbiyələnməsinə şərait yaradır.

İngilis dili dərslərində tələbələrin mənəvi tərbiyəsinin formalaşmasına imkan yaradan metod və priyomlara qarşılıqlı fəaliyyətin kollektiv formalarını aid etmək olar. Bu baxımdan qruplarla və cütlərlə iş xüsusi əhəmiyyət kəsb edir. Məhz qruplarla və cütlərlə iş zamanı bu və ya digər problemin müzakirəsi baş verir. Məhz ətrafdakılarla qarşılıqlı fəaliyyət nəticəsində müxtəlif görüşlər, fikirlər meydana gəlir. Beləliklə, bu vəziyyətdə problemin müzakirəsi iş metodlarından birinə çevrilir. Lakin iş yalnız müzakirə ilə bitmir. Hər hansı bir problemin müzakirəsi zamanı verilən qərar bütün auditoriyaya təqdim edilir və ən yaxşı həlli seçilir və seçimini əsaslandırır.

Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Bugünkü təhsil və tərbiyənin əsasını Azərbaycan torpağına məhəbbət və vətənpərvərlik təşkil edir.

Tələbələrin xarici dilə olan marağının, özünə inamının daha da artması, biliklərin genişlənməsi üçün daim yeni şeylər öyrənməyə can atması, kollektiv qarşısında çıxış etmək, fikir yürütmək, müzakirələrdə iştirak etmək, rəqabət hissini duymaq, qabiliyyət və bacarıqlarından istifadə edərək bildiklərini söyləməkdən qorxmamaq kimi hissləri aşılamaq üçün auditoriyadankənar tədbirlərin əhəmiyyəti çox böyükdür.

Tələbə şəxsiyyətinin hərtərəfli inkişafı, mənəvi keyfiyyətlərin formalaşması, onun daxili aləminin zənginləşdirilməsi, yalnız təlim prosesində verilən biliklərlə deyil, həm də onların düşüncə tərzi, psixoloji durumu, əhval-ruhiyyəsi ilə bağlıdır. Hisslərin tərbiyə olunması tələbələrin daxili aləmini zənginləşdirir, onların əməllərini, davranışını, düşüncəsini nizamlayır [1].

İngilis dilinin tədrisi prosesində bədii mətnlərdən, didaktik oyunlardan, yeni təlim texnologiyalarından istifadə edərkən bu dilin spesifik xüsusiyyətlərini nəzərə almaqla mənəvi tərbiyənin formalaşdırılmasını həyata keçirmək üçün aşağıdakı prinsiplərin nəzərə alınması əsas şərtlərdən biridir:

1. Tələbələrin maraqlarının nəzərə alınması:
2. Mənəvi tərbiyənin ümumbəşəri dəyərlər nəzərə alınmaqla milli zəmində qurulması;
3. Mənəvi tərbiyənin real həyatla əlaqələndirilməsi;
4. Tərbiyədə nikbinlik prinsipi;
5. Tərbiyədə məqsədyönlülük prinsipi.

Xarici dil üzrə təlim prosesinin keyfiyyətinin yüksəldilməsinin əsas meyarları aşağıdakılardır:

a) təlim fəaliyyətinin məhsuldarlığı (mənimsəmənin keyfiyyəti, naməlum uuıasiyalarda bilik, bacarıq və vərdişlərin tətbiqi, öyrənmə dərəcəsi, biliklərin inteqrasiyası, təlim prosesində bacarıqların formalaşdırılması);

b) tələbələrin şəxsiyyətinin fərdi psixoloji xüsusiyyətləri (təlim motivasiyası, tədqiqatçılıq vərdişlərinin olması, təşəbbüskarlıq, intellekt, təlim fəaliyyətində irəliləmə sürəti, mənəvi keyfiyyətlərin formalaşma səviyyəsi, tələbənin şəxsiyyətyönlü inkişafı).

Tələbənin yüksək səviyyədə mənəvi keyfiyyətlərə malik olması ona digərləri ilə ünsiyyət qurmağa, çətin situasiyalardan çıxmağa, yeni ideyalar verməyə, mədəni-mənəvi dəyərlərdən istifadə etməyə imkan verir.

Ümumiyyətlə, xarici dilin öyrənilməsi prosesində tələbələrə aşağıdakı mənəvi keyfiyyətlər aşılanır:

1. Suveren dövlətimizin həyatında fəal iştirak etmək;
2. Tələbələrdə milli və ümumbəşəri dünyagörüşünün formalaşması;
3. Torpaqlarımızın müdafiəsinə hazır olmaq, haqsızlığa qarşı barışmazlıq;
4. Milli adət-ənənələrimizin qorunub saxlanması;
5. Dili öyrənilən xalqın tarixinə, dininə, incəsənətinə, mədəniyyətinə hörmətlə yanaşmaq.

Müasir zamanda milli mənlik şüurunun artması, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətləri cəmiyyətin inkişafında vacib və önəmli amil hesab edilir. Məhz buna görə də şəxsiyyətin milli-mənəvi, əxlaqi tərbiyəsi, layiqli insan yetişdirmək problemi dövlətin daim diqqət mərkəzindədir. Bu baxımdan səriştəli müəllim özü ilk növbədə yüksək mənəvi-əxlaqi keyfiyyətlərə sahib olmalı, hər yerdə əxlaqilik nümunəsi göstərməlidir [4].

Bütün müəllimlər kimi xarici dil müəllimləri də yüksək peşəkarlıq və səriştə nümayiş etdirərək hər bir mövzunun tədrisi ilə bağlı bilik, bacarıq və vərdişlər sistemini gerçəkləşdirməklə yanaşı, həm də tələbələrin bir şəxsiyyət kimi formalaşdırılmasını təmin etməlidirlər. Əlbəttə ki, şəxsiyyətyönlülük deyəndə tələbələrin şəxsiyyətinin bütöv bir mənəvi simasını, onların mənəvi mədəniyyət bütövlüyünü formalaşdırmaq nəzərdə tutulur.

Xarici dil müəllimləri yeni təlim metodları vasitəsilə nitq bacarıq və ərdişlərini aşılamaqla yanaşı, tələbələrdə mənəvi tərbiyənin formalaşdırılmasma da bilavasitə məsuliyyət daşıyır. Onlar tədris etdiyi fənnin vasitəsilə, şəxsi nümunəsi ilə gələcəyimiz olan yuxarı sinif tələbələrinin mənəvi kamilliyinə və tərbiyəsinin düzgün formalaşmasına nail olmaq kimi müqəddəs vəzifənin daşıyıcısıdırlar.

Müəllimin tələbələrə verdiyi bilik, bacarıq və vərdişlər yüksək insani keyfiyyətlərin formalaşdırılmasma xidmət etməlidir. Ali məktəblərdən ilk növbədə yaxşı insan çıxmalı, sonra bilikli mütəxəssis yetişməlidir. Elə bir insan ki, o hər yerdə milli-mənəvi və bəşəri dəyərləri mənimsəmiş bir şəxsiyyət kimi fəaliyyət göstərir, cəmiyyətdəki sosial-siyasi şəraitə, bazar iqtisadiyyatına, zəngin informasiya-kommunikasiya məkanı-

na uyğunlaşmışdır. Sadə dillə desək ali məktəb bütün həyat üçün bilik vermir, amma həyat boyu oxuyub-öyrənməyi və bilikləri səmərəli tətbiq etməyi, öz üzərində daim çalışmağı öyrədir ki, bütün bunlar da səriştəli, peşəkar müəllimin fəaliyyəti nəticəsində, təlim və tərbiyə prosesini yüksək səviyyədə qurması ilə mümkün olur.

**Problemin elmi yeniliyi.** Tələbələrdə milli-mənəvi dəyərlərin formalaşdırılması, ilki növbədə, fərd və şəxsiyyət anlayışlarının tələbələrin gündəlik fəaliyyətində hansı şəklidə təcəssüm olunması ilə bağlıdır. Ona görə də mövzusundan, asılı olmayaraq, "İngilis dili" fənni üzrə hər bir dərs tərbiyəvi əhəmiyyət daşıyan dinləmə mətnlər üzərində qurulan fəaliyyətlə başlanılmalıdır.

**Problemin aktuallığı.** Tələbələrin ingilis dilində qazandıqları nitq bacarıqlarından səmərəli istifadə olunması istiqamətində tədbirlərə geniş yer verilməlidir. Tələbələr ingilis dilli saytlar vasitəsilə öz yaşıdları ilə əlaqə saxlaması, xalqımızın tarixi, ədəbiyyatı, incəsənəti və s. barədə onları məlumatlandırması müasir təhsilin aktual problemlərindən biri kimi gündəmə gətirilməlidir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Müasir insan şəxsiyyət olaraq ailədə, məktəbdə, universitetdə və əhatə olunduğu mühitdə yetişir. İngilis dili dərslərində cəmiyyətimizin ictimai həyatında baş verən mühüm hadisələrə, məsələn, xalqımızın Qarabağ uğrunda 44 günlük Vətən müharibəsinə həsr olunmuş mövzulara müraciət olunması tələbələrin vətənə, millətə, torpağa sədaqət ruhunda tərbiyələnməsinə şərait yaradır.

**Ədəbiyyat:**

1. Abbasova S.H. İngilis dili fənninin tədrisi metodikasında yeni, müasir təlim metodları. -Bakı: 2005. -25 s.
2. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili, -Bakı, 2004. -488 s.
3. Hacıyeva A. Tələbənin şəxsiyyət kimi formalaşması ali təhsil müəssisələrinin aktual problemi kimi // ARTPİ-nin Elmi əsərləri, 2016, № 1.
4. Kazımov N. Ali məktəb pedaqogikası.- Bakı: Çıraq, -2011, -440 s.
5. Müslümov Z. Pedaqoji təmayüllü ali məktəb tələbələrinin mənəvi tərbiyəsi. -Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, -1996, -90 s.
6. Alduais A. M. S. (2012). Integration of Language Learning Theories and Aids Used for Language Teaching and Learning. A Psycholinguistic Perspective. Journal of Studies in Education, Vol 2, No
7. Long, M.H., & Porter, P. (1985). Group Work, Interlanguage Talk, and Second Language Acquisition. TESOL Quarterly, 19(2): 207-228.
8. Lightbown, P., & Spada, N. (2002). How languages are learned. Oxford: Oxford University Press.

**Redaksiyaya daxil olub:** 06.02.2025.